2021.-14 avqust.-S7.



Famil Rəhimli

## QAR ALTINDA İKİ ÜRƏK

*Yadımdan çıxmayır bir qış axşamı,*
*Səninlə birlikdə yandırdıq şamı.*
*Oturub seyr etdik əriyən şamı,*
*Həyat də beləcə əriyib gedir.*
*Yaxşını-yamanı sürüyüb gedir...*

*Çıxdıq biz baxçaya, baxçada qardı,*
*Sevən ürəklərə otaqlar dardı.*
*Qoşa ürək çəkdin, sən qar üstünə,*
*Dedin ki, biri sən, biri də mənəm.*
*Mən sənin arzunam, sən də bir dənəm.*

*...Yenə də bağdayam, yenə qar yağır,*
*Qəlbim səninlədir, olsa da ağır.*
*Gözümün önündə o iki ürək,*
*Qar yağır, ürəklər qar altındadır.*
*Bilirəm, sənin də gözün yoldadır...*

## ÖTƏN İLLƏR

*O gənclik illəri məndən qaçırdın,*
*Şaqraq gülüşünlə işıq saçırdın.*
*Sən bağlar qapını rahat açırdın,*
*Nə oldu ağ atlı igidlər harda..?*
*Niyə çətin gündə qalmısan darda..?*

*Gözlərin ayağın altını görmürdü,*
*Səninçin ağlayan gözü silmirdi.*
*Əsil sevgi nədir, onu bilmirdi,*
*Düşündün var-dövlət, puldur məhəbbət,*
*Sənin bir əlində quldur məhəbbət...*

*Yox, elə olmadı illər ötüşdü,*
*Həyatın payızı gəldi yetişdi.*
*Hərə öz yarıyla birgə çəkişdi,*
*Onda sən anladın sevgi varda yox,*
*Ürəkdə, qəlbdədir bildin darda çox...*

## ALIŞAN MƏHƏBBƏT

*Sən getdin düşündün mən gələcəyəm,*
*Sonradan qədrini mən biləcəyəm.*
*Məhəbbət yolunda mən öləcəyəm,*
*Yox, keçdi o vaxtlar, keçdi zamanlar*
*Başında qalmasın elə gümanlar...*

*Getdinsə, arxaya bir daha baxma,*
*Bulud tək tutulub, şimşək tək çaxma*
*Verdiyim üzüyü barmağa taxma,*
*Mənim sözüm yoxdur, sakit qalmışam*
*Nakam sevgimizdən məyus olmuşam.*

*Bizim sevgimizdən hamı danışdı,*
*Bəzi bədnəzərlər işə qarışdı.*
*Sonra da eşqimiz yandı alışdı,*
*Niyə sən alışdın, niyə ki, yandın,*
*Mənim saf sevgimi özündə dandın...*

*Masallı rayonu Şərəfə kəndi.*
*(Halhazırda Yeketerinburqda yaşayır)*